# Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədəki Azərbaycan vətəndaşlarının təxliyəsi davam edir

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkədəki Azərbaycan vətəndaşlarının qonşu dövlətlərin ərazisindən keçməklə respublikamıza təxliyəsi davam edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, martın 8-dək Azərbaycana 4375 nəfər (son sutka ərzində 1237 nəfər olmaqla) təxliyə olunub. Onların arasında çarter reysləri ilə təxliyə edilənlər 2298, quru yolu ilə təxliyə olunanlar isə 2077 nəfər təşkil edib.

Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən əksəriyyəti Rumıniyanın Yassi şəhərindən olmaqla, Rumıniya və Polşa ərazisindən indiyədək 12 çarter reysi təşkil olunub. Azərbaycan vətəndaşlarının həm çarter reysləri, həm də qonşu ölkələrin ərazisindən keçməklə avtobuslarla təxliyəsi davam edir.

* * *

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ölkəmizin Ukraynadakı səfirliyinin diplomatlarının Kiyevdən Lvova köçürülməsi barədə məlumat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən daxil olan məlumatda bildirilib ki, Ukraynadakı vəziyyətlə əlaqədar paytaxt Kiyevdə artan təhlükəsizlik şəraitində bu şəhərdə fəaliyyət göstərən Azərbaycan diplomatları Lvov şəhərinə köçüblər.

Müvəqqəti olaraq Lvovda fəaliyyət göstərəcək diplomatlarımız Ukraynadakı azərbaycanlıların müraciətləri, o cümlədən təxliyəsi məsələsi ilə bağlı fəaliyyəti davam etdirəcək.

Səfirliklə aşağıdakı qaynar xətlərlə əlaqə saxlamaq olar:
+380 73 5050000;
+380 99 408 99 43.

* * *

Ukraynadakı vəziyyətlə əlaqədar bu ölkə ərazisində daimi və müvəqqəti yaşayan, səfərdə olan Azərbaycan vətəndaşlarının qonşu ölkələrin ərazisindən keçməklə respublikamıza təxliyəsi davam edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, martın 7-dək Azərbaycana 3138 nəfər təxliyə olunub. Onların arasında çarter reysləri vasitəsilə təxliyə olunanların sayı 1908, quru yolu ilə ölkəmizə gətirilənlərin sayı isə 1263 nəfər təşkil edir.

Vətəndaşlarımızın təxliyəsi üçün Azərbaycan hökuməti tərəfindən əksəriyyəti Rumıniyanın Yassi şəhərindən olmaqla, Rumıniya və Polşa ərazisindən indiyədək 10 çarter reysi təşkil olunub. Bu reyslərlə əsasən qadınlar, uşaqlar, yaşlılar, xəstələr və digər həssas qrupa daxil olan vətəndaşlarımızın təxliyəsinə üstünlük verilib.

Vətəndaşlarımızın həm çarter reysləri, həm də qonşu ölkələrin ərazisindən keçməklə avtobuslarla təxliyəsi davam edəcək.

***AZƏRTAC***

Azərbaycan.- 2022.- 10 mart.- S.3.